Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# ÜZEYİR HACIBƏYLİ

***BİBLİOQRAFİYA*** **(1905-2015)**

**Yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci variantı**

**Bakı - 2015**

**KBT** Я19:Щ313+Щ313(2A)-8
**UOT** 016:78.071.1(479.24)

***Elmi redaktor və ön sözün müəllifi:*** **Zemfira Səfərova,**
*sənətşünaslıq doktoru, professor,*
*Əməkdar incəsənət xadimi,*
*Əməkdar elm xadimi, AMEA-in müxbir üzvü*

***İxtisas redaktoru və buraxılışa məsul:*** ***Kərim Tahirov,***
*professor*
*Əməkdar mədəniyyət işçisi*

***Redaktor:*** **Gülbəniz Səfərəliyeva,**
*Əməkdar mədəniyyət işçisi*

***Tərtib edənlər:*** ***Hökümə Haşımova,***
***Rəna Orucəliyeva,***
***Nurhal Aslanbəyova,***
***Günay Səfərova,***
***Natalya Səlimova,***
***Kəmalə Seyidova***

**Üzeyir Hacıbəyli:** Biblioqrafiya /tərtib edənlər: R.Orucəliyeva, H.Haşımova və başq.; elmi red. və ön sözün müəl. Z.Səfərova; ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşri.- Bakı, 2015.- 539 s. Azərbaycanın görkəmli şəxsiyyətləri.

**© M.F.Axundov adına Milli Kitabxana, 2015**

## Göstərici haqqında

Azərbaycan musiqisinin klassiki, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, professor Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin həyat və yaradıcılığının biblioqrafik göstəricisi olan bu vəsait Milli Kitabxana tərəfindən 2008-ci ildə nəşr edilmiş biblioqrafiyanın işlənilmiş və təkmilləşdirilmiş variantıdır. Göstərici ədibin yaradıcılığının 1905-2015-ci ilə qədər olan dövrünü əhatə edir.

Biblioqrafiya dörd bölmədən ibarətdir. Bölmələrə sənətkarın həyat və yaradıcılığının əsas tarixləri, yaradıcılıq yolunun ümumi xarakteristikasına həsr olunmuş oçerk, bəstəkarın musiqi əsərləri, kitabları və ayrı-ayrı məcmuələrdə, jurnallarda və qəzetlərdə dərc olunmuş məqalələri, habelə Üzeyir Hacıbəyli haqqında ədəbiyyat daxildir.

"Ü.Hacıbəylinin əsərləri" bölməsi bir neçə hissədən ibarətdir:

- Musiqi əsərləri - burada Hacıbəylinin əsərləri janr əlamətinə görə verilmiş, hər janrın çərçivəsində isə xronoloji qayda gözlənilmişdir.
- Bədii-publisistik əsərlər, kitablar, tədris vəsaitləri, məqalələr, çıxışlar - olan materiallar da Azərbaycan və rus dillərində xronoloji qaydada verilmişdir. Bədii publisistik və elmi əsərlərin adları və imzalar orijinala əsaslanır.
- Redaktə etdiyi və məsləhət verdiyi əsərlərə Ü.Hacıbəylinin redaktə etdiyi, məsləhət verdiyi musiqi əsərləri və məcmuələr daxil edilmişdir.

Biblioqrafiyanın yeni və tam nəşrinin hazırlanması dövrundə bəstəkarın həyat və yaradıcılığından bəhs edən bölmə əhəmiyyətli dərəcədə yenidən işlənilmiş və çoxlu sayda əlavələr edilmişdir. Tərtibçilər bu bölmənin birinci nəşrində qəbul olunmuş əlifba quruluşunu saxlamağı daha məqsədəuyğun hesab etmişlər.

Həmin biblioqrafiyaya ilk dəfə olaraq dahi sənətkarın xariçi dillərdə nəşr olunmuş əsərləri və onun həyat və yaradıcılıq yolunu işıqlandıran ədəbiyyat da daxil edilmişdir.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər verilmiş, Ü.Hacıbəylinin əsərlərinin sərlövhə göstəricisi və onun haqqında yazan müəlliflərin adlar göstəricisi öz əksini tapmışdır.

Üzeyir Hacıbəyli kimi dahi şəxsiyyətin bütün yaradıcılığını və böyük bəstəkar haqqında yazılan materialların 100 ildən artıq nəşr tarixini əhatə edən bu fundamental biblioqrafiya haqqında rəy və təkliflərini göndərən oxuculara tərtibçilər əvvəlcədən öz minətdarlıqlarını bildirirlər.

**Ünvan:** A3-1000, Bakı şəhəri., Xaqanı küç. 29;

**E-mail:**contact@anl.az; www.anl.az

# ÖLMƏZLİK

Bəşəriyyət tarixində elə sənətkarlar və şəxsiyyətlər var ki, "...onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümum insaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cürə adamlar nəinki sağlığında, ... öləndən sonra da camaata mənfəət veriblər".[1] Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin dediyi bu sözləri ilk növbədə bəstəkarın özünə aid etmək olar.

Yaradıcılığına XX əsrin əvvəllərində başlamış, həyatını isə onun ortalarında tamamlamış Üzeyir Hacıbəylinin musiqisi və bütövlükdə yaradıcılığı biz musiqiçilər üçün və ümumən Azərbaycan xalqı üçün nə deməkdir? Bu gün tam qətiyyətlə deyə bilərik ki, artıq bir əsrdən çox vaxt ərzində çalınan, səslənən Ü.Hacıbəyli musiqisi Azərbaycan xalqının canına, qanına sirayət edərək onun bədii mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir. Necə ki, Üzeyir bəy xalq musiqimiz haqqında deyirdi ki, ona həmişə "ruh yüksəkliyi və aydınlıq ehtizazı, sabahkı qalibiyyətə möhkəm inam, mənəvi büllurluq, alicənablıq, şücaət və qəhrəmanlığı tərənnüm etmək xas olmuşdur", eləcə də Hacıbəylinin musiqisi üçün də bu cəhətlərlə bərabər, günəş kimi parlaqlıq, əlvanlıq xas olmuşdur. Bütün bu xüsusiyyətlər onun musiqisinin mahiyyətini təşkil etmişdir.

Sənətdə, musiqi mədəniyyətində millilik və beynəlmiləlçilik anlayışını Ü.Hacıbəyli daha qlobal, Qərb və Şərqin, dünya və milli mədəniyyətlərinin nailiyyətlərinin üzvü sintezi kimi başa düşürdü və həll edirdi.

Azərbaycan musiqisinin gələcək yolu da məhz Ü.Hacıbəylinin irəli sürdüyü, əsasını qoyub apardığı yol oldu. Bu gün Azərbaycan musiqisinin beynəlmiləl əhəmiyyət kəsb etməsində Ü.Hacıbəyli yaradıcılığının və şəxsiyyətinin böyük rolu vardır.

Ü.Hacıbəyli dahi bəstəkar, Azərbaycanın, eləcə də Şərq opera sənətinin banisi, "Leyli və Məcnun", "Koroğlu" kimi təkrarsız operaların müəllifi, böyük musiqişünas - alim, bütöv musiqi-estetik konsepsiya yaratmış nəzəriyyəçi, "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-nəzəri risalənin müəllifi, görkəmli dramaturq, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarının əlvan, günəşli musiqisi ilə bərabər, həm də bu əsərlərin librettolarının müəllifi, alovlu publisist, jurnalist, saysız-hesabsız dəyərli məqalələrin müəllifi, gözəl pedaqoq, Azərbaycan bəstəkarları və musiqişünaslarının istedadlı nəslinin müəllimi, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Elmlər Akademiyasının elmi-tədqiqat İncəsənət İnstitutunun rəhbəri, Akademiyanın musiqi üzrə ilk həqiqi üzvü, yorulmaz ictimai xadim, Azərbaycan Dövlət Konservatoriyasının təşkilatçısı, onun

[1] Ü.Hacıbəyli. "Həqiqət" qəzeti, 1910. 14 aprel. № 82.

rektoru və professoru, ilk çoxsəsli xorun, ilk notlu xalq çalğı alətləri orkestrinin, musiqi məktəbinin, musiqi texnikumunun yaradıcısı idi. O, Azərbaycan Dövlət himnlərinin müəllifi olmuş, Azərbaycan SSR-nin Xalq artisti, Dövlət mükafatları laureatı idi.

Bütün bunlar bizə haqq verir deyək ki, XX əsrin xalqımıza bəxş etdiyi ən böyük şəxsiyyətlərdən, ən böyük simalardan biri Üzeyir Hacıbəylidir. Ona Şərq və Qərb musiqi mədəniyyətləri arasında keçilməz səddi aradan götürmək, Azərbaycan musiqisinin gələcək inkişaf yolunu və estetik prinsiplərini müəyyənləşdirmək nəsib olmuşdur. Yer kürəsinin milyonlarla insanları Hacıbəyli musiqisinə qulaq asaraq, bütün kökləri ilə öz xalqının folkloru ilə bağlı olan və dünya musiqi mədəniyyətinin nailiyyətlərini mənimsəyən sənətkarın yaradıcılığına bələd olurlar. Bu yaradıcılıqda Şərqin və Qərbin musiqi ənənələrinin vəhdəti parlaq bədii obrazlarla əks olunmuş, yüksək humanizm idealları, xeyirxahlıq, xalqlar dostluğu tərənnüm edilmişdir.

Biz XXI əsrdən dahi bəstəkarımız Üzeyir Hacıbəylinin yaradıcılıq yoluna nəzər salsaq, onun təkrarsız, parlaq yaradıcılığının əsas sütunları və mərhələləri kimi, xüsusən “Leyli və Məcnun” operasını, “Arşın mal alan” operettasını, “Koroğlu” operasını və “Azərbaycan xalq musiqisinin əsasları” elmi əsərini göstərə bilərik. Məhz bu əsərlərin yalnız onun yaradıcılığı üçün deyil, bütün Azərbaycan musiqisi üçün önəmli mərhələ əsərləri olduğunu qeyd etməliyik. Şübhəsiz, biz bəstəkarın digər əsərlərinin - “Əsli və Kərəm” və başqa muğam operalarının, “Məşədi İbad” operettasının, “Şur” və “Çahargah” fantaziyalarının, “Aşıq sayağı” triosunun, kantatalarının, “Sənsiz” və “Sevgili canan” musiqi qəzəllərinin və digər vokal və instrumental əsərlərinin, hər iki himninin və sadalamadığımız bir çox əsərlərinin böyük dəyərini və rolunu inkar etmək fikrində deyilik. Amma “Leyli və Məcnun”un Azərbaycanda və eləcə də Şərqdə opera sənətinin əsasını qoyduğunu, “Arşm mal alan”ın lirik-komik operettasının zirvəsi olduğunu və dünya şöhrəti qazandığını, “Koroğlu”nun klassik epik-qəhrəmanı operasının ənənələrini davam etdirən şah əsəri olduğunu, “Azərbaycan xalq musiqisinin əsasları” elmi əsərinin Azərbaycanın ənənəvi şifahi musiqisini araşdıran və onun haqqında yazılan ilk elmi əsər olduğunu bir daha vurğulayaraq, dediyimiz kimi, məhz bu əsərlərin bəstəkarın yaradıcılığı üçün və həm də Azərbaycan musiqisi üçün çox önəmli mərhələ və dönüş əsərləri olduğunu bir daha qeyd etmək istərdik. Təsadüfi deyil ki, bu il, yəni 2008-ci ildə 100 yaşlı “Leyli və Məcnun”un yubileyi YUNESKO xətti ilə bütün dünyada bayram edilir.

*** * ***

Üzeyir Hacıbəyli 1885-ci ilin 18 sentyabrında Qarabağın Ağcabədi kəndində kənd mirzəsi Əbdülhüseynin ailəsində doğulmuşdur. Tezliklə Üzeyirin ailəsi Şuşa şəhərinə köçür. Azərbaycanın mədəni mərkəzlərindən biri olan Şuşa qədimdən bəri özünün musiqi və ədəbi ənənələri ilə məşhur idi.

Kiçik Üzeyir üçün də Şuşanın musiqi və poeziya hopmuş ab-havası yaradıcılıq beşiyi olmuşdur. Burada Vaqif, Xurşudbanu Natəvan, Zakir, Ə.Haqverdiyev, N.Vəzirov, Y.Çəmənzəminli, F.Köçərli kimi şair və yazıçılar, məşhur alim, şair, musiqişünas, rəssam Mir Möhsün Nəvvab, gözəl tarzən və bu aləti təkmilşədirən Sadıqcan, məşhur xanəndə və tarzənlər Məşədi İsi, Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Məmməd Fərzəliyev, Məcid Behbudov, İslam Abdullayev, Seyid Şuşinski və bir çoxları yaşayıb yaradırdılar.

Xurşidbanu Natəvan, Həsənbəy Zərdabi, Cabbar Qaryağdıoğlu - Azərbaycan mədəniyyətinin üç korifeyi, Üzeyirin yaşlı müasirləri idi. Bu üç böyuk xadimin üçü də sanki Üzeyir ömrünün ilkin dövrünə işıq saçmışlar. Cabbarın Məcnunu gözəlliyə həssas olan uşağın qəlbinə ilk sənət toxumları səpmişdir. Az sonra Natəvan onun təhsilinə xeyir-dua vermiş, on ildən sonra isə Həsənbəy Zərdabi istedadlı gəncin opera yaratmaq arzusuna havadar çıxmışdır.

Üzeyir Hacıbəylinin ilk sənət uğurlarını qeyd edənlər arasında xalqımızın böyük oğlu Nəriman Nərimanov da var idi. Xalqımızın iftixarı olan başqa böyük - şəxsiyyəti ədib Mirzə Cəlil Məmmədquluzadə də "Molla Nəsrəddin" jurnalının səhifələrində özünəməxsus bir üslubda "Arşm mal alan"ın geniş şöhrətindən ürək dolusu söz açırdı. Üzeyir Hacıbəylini Mirzə Cəlillə, Sabirlə, Haqverdiyevlə, ümumən "Molla Nəsrəddin" ədəbi məktəbi ilə bağlayan mənəvi yaxınlıq, əqidə birliyi onların şəxsi dostluq münasibətlərini də möhkəmləndirdi.

Üzeyirin atası Əbdülhüseyn Hacıbəyli və anası Şirin xanım Əliverdibəyova öz uşaqlarını musiqi və poeziyaya məhəbbət ruhunda tərbiyə edirdilər. Bu məhəbbət ailənin məşhur şairə Xurşudbanu Natəvanla əlaqəsi nəticəsində daha da möhkəmlənmişdir.

İlk təhsilini Üzeyir Şuşanın ikisinifli rus-Azərbaycan məktəbində almışdı. Üzeyirin ilk musiqi müəllimi onun dayısı, Azərbaycan musiqisinin böyük bilicisi Ağalarbəy Əliverdibəyov olmuşdur. Üzeyirin yaxşı səsi var idi və o, xalq mahnılarını və muğamları gözəl ifa edirdi. Onun səsi hətta fonoqrafa yazılmışdı. 13 yaşlı Üzeyir "Məcnun Leylinin məzarı üzərində" səhnəsini müşayiət edən oğlanların xorunda iştirak etmişdi. Səhnəni məşhur xanəndə Cabbar Qaryağdıoğlunun iştirakı ilə dramaturq Ə.Haqverdiyev qoymuşdu. Bu səhnə kiçik Üzeyiri elə həyəcanlandırmışdı ki, bəstəkarın özünün etirafına görə, bir neçə ildən sonra, ilk musiqi səhnə əsərinin – "Leyli və Məcnun" operasının yaranması üçün əsas təkan olmuşdur.

1896-cı ildə Üzeyir özünün böyük qardaşı Zülfüqar və əmisi Hacıbəy Hacıbəyli ilə birlikdə şairə Xurşudbanu Natəvanla görüşmüşlər. Bu görüş haqda Natəvanın arxivində saxlanılan sənəd xəbər verir. Bu sənədi Zülfüqar Hacıbəyli yazmış, Üzeyir Hacıbəyli isə onun doğruluğunu təsdiq etmişdir. Zülfüqar Hacıbəyli bu sənəddə belə yazır:

"Keçmişdə verdiyim qeydə əlavə olaraq təsdiq edirəm ki, 1896-cı ildə qardaşım Üzeyir Hacıbəyli ilə bərabər... Qori şəhərinin müəllimlər məktəbinə imtahan vermək üçün Tbilisi şəhərinə yola düşərkən əmim Hacıbəy Hacıbəylinin

vasitəsi və müşayiəti ilə o vaxt xan qızı Xurşudbanı bəyimin (Natəvanın) yanına gəldik ki, bizə xeyir-dua versin”.[2]

Bu sənəd Üzeyir Hacıbəylinin tərcümeyi-halı üçün, gələcək bəstəkarın məşhur şairə Xurşudbanı Natəvanla görüşü faktının təsdiqi üçün vacibdir.

(Lakin qeyd edək ki, Üzeyir Qori seminariyasına həmin il yox, üç ildən sonra, artıq Natəvanın ölümündən sonra 1899-cu ildə daxil olmuşdur).

1899-cu ildən 1904-cü ilə qədər Üzeyir Hacıbəyli Qori müəllimlər seminariyasında oxumuşdur. Burada o, dünya mədəniyyəti ilə tanış olur, rus və Qərbi Avropa klassiklərinin dahi əsərlərini mənimsəyir.

O, seminariyada skripka və baritonda çalmağı öyrənir, xalq mahnılarının nümunələrini nota yazır. Üzeyir Hacıbəylinin dünyagörüşünün formalaşmasında seminariya illəri böyük rol oynamışdır. Burada onun humanist ideyalarının və inqilabi-demokratik görüşlərinin əsası qoyulmuşdur.

Seminariyanı bitirdikdən sonra Üzeyir bir neçə vaxt Hadrut kəndində müəllim işləyir. 1905-ci ildə inqilab ərəfəsində o, Bakıya gəlir, Bibiheybət neft rayonunda fəhlələrin uşaqlarına dərs deyir. Onun ictimai-siyasi və maarifçi fəaliyyəti başlanır.

Müəllimlik fəaliyyətinə yaradıcı yanaşan Hacıbəyli hesabdan Azərbaycan dilində dərslik tərtib edir, N.V.Qoqolun “Şinel” əsərini doğma dilinə tərcümə edir, bir sıra hekayə və miniatürlər yazır, 1907-ci ildə “Siyasi, hüquqi, iqtisadi və hərbi sözlərin türkü-rusi və rusi-türkü” lüğətini yazır.[3] Lüğət ictimai-siyasi, fəlsəfi terminlərin tərtibində, eləcə də demokratik ideyalarının təbliğində əhəmiyyətli rol oynamışdı. Lüğətdə sosializm, internasionalizm, revolyusiya, demokratiya və s. kimi sözlərin mənası aydınlaşdırılır.

Ü.Hacıbəyli öz fəaliyyətinə maarifçi-demokrat cəbhəsinin fəal nümayəndələrindən biri kimi başlamışdır. “İrşad”, “Həqiqət”, “Tərəqqi”, “Yeni iqbal”, “Kaspi”, “Molla Nəsrəddin” kimi jurnal və qəzetlərin səhifələrində dərc olunmuş məqalə və felyetonlarında Hacıbəyli dövrün aktual məsələlərinə - xalqın maarifi uğrunda mübarizə, milli dil problemi, rus mədəniyyətinə münasibət və s. kimi problemlərə toxunmuşdur. O, ən aktual siyasi mövzulara: Rusiyada 1905-ci il inqilabı, İran inqilabı və s. haqda yazırdı. Onun felyetonları “Ordan-burdan” ümumi başlıq və “Filankəs”, “Üzeyir”, “Bəhmənkəs” və s. müxtəlif təxəllüslərlə dərc olunurdu.

Onun “Qədirşünaslıq”, “Biz hamımız qafqazlı balalarıyıq” məqalələri, “Ordan-burdan”, “Filankəs” imzası ilə çıxan yazıları, 1917-ci ildə “Kaspi” qəzetinin səhifələrində dərc olunmuş musiqi teatrı haqqında silsilə məqalələri (“Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında”, “Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında”), “Azərbaycan” qəzetində çıxan bir sıra yazıları bu dövrün qiymətli məhsuludur. Ü.Hacıbəylinin inqilabdan əvvəl yazdığı publisistik əsərləri və operettaları onun

---

[2] Natəvanın arxivi. Azərb.MEA-nın Əlyazmalar fondu.

[3] Lüğət Bakıda 1907-ci ildə Orucov qardaşlarının mətbəəsində çap olunmuşdur.

Azərbaycan mədəniyyətində M.F.Axundovun inqilabçı-mütərəqqi ənənələrini davam etdirdiyini, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev kimi demokrat yazıçıların məslək dostu olduğunu, rus inqilabçı demokratların təsiri altında yazıb yaratdığını göstərir. Ü.Hacıbəyli yazılarında dəfələrlə bu görkəmli şəxsiyyətlərin əsərlərinə müraciət etmişdir.

Ü.Hacıbəyli publisistikasının əsas pafosu xalqın gücünə böyük inamdan ibarət idi. Publisist Hacıbəylinin ehtiraslı qələmi çox illər bu ideyalara sadiq qulluq edirdi.

* * *

Ü.Hacıbəylinin ilk musiqi əsəri unikal "Leyli və Məcnun" operasıdır. Unikal ona görədir ki, bu əsər Şərqdə, eləcə də Azərbaycanda opera sənətinin əsasını qoymuşdur, unikal ona görədir ki, bu əsərdə Azərbaycan professional bəstəkarlıq məktəbinin bünövrəsi qoyulmuşdur, unikal həm də ona görədir ki, muğamlara əsaslanaraq, "Leyli və Məcnun" musiqimizdə muğam operasının təməlini qoydu. Bu operadan sonra Ü.Hacıbəylinin "Şeyx Sənan", "Əsli və Kərəm", "Şah Abbas və Xurşudbanu", "Harun və Leyla", M. Maqomayevin "Şah İsmayıl", Z.Hacıbəylinin "Aşıq Qərib" muğam operaları yarandı. Lakin bu operaların arasında "Leyli və "Məcnun"un Azərbaycan musiqisi tarixində oynadığı rol, xalqımızın qəlbində tutduğu yer xüsusidir.

Bir əsrdən artıqdır ki, bu opera səhnədən düşmür, yeni-yeni ifaçılar – Leylilər, Məcnunlar nəsli yetişir. 22 yaşlı gənc Üzeyir Hacıbəylinin yaratdığı "Leyli və Məcnun" operasının 100 il ərzində daimi, stabil uğurunun sirri, səbəbi nədədir? Qədim muğamlarımızın gözəlliyində, təkrarsızlığında, yoxsa dahi Füzulinin eyni adlı poemasında, qəzəllərində, ya da gənc Üzeyirin operaya yazdığı musiqi parçalarında, bəlkə o vaxtlar Hüseynqulu Sarabskinin yaratdığı təkrarsız Məcnun rolunda? Daha doğrusu, bunların ayrı-ayrılıqda heç birində, eyni zamanda hamısında, onların vəhdətində. Üzeyir bəyin istedadı bunların hamısının vəhdətini, sintezini yarada bilmişdir.

İlk Azərbaycan operasının əsas və xarakter xüsusiyyəti həm də ondan ibarət idi ki, bu əsərdə Ü.Hacıbəylinin özünün bəstələdiyi musiqi ilə xalq musiqisini bir-birindən ayıran səddi tapmaq mümkün deyildi. "Leyli və Məcnun" operasının bu xüsusiyyətini qeyd edən Ü.Hacıbəyli yaradıcılığının ilk tədqiqatçılarından olan V.Vinoqradov yazırdı: "Folklorun bəstəkarlıq yaradıcılığına keçməsinə musiqi tarixində bundan bariz nümunə tapmaq çətindir".[4]

"Leyli və Məcnun"da Ü.Hacıbəylinin özünün bəstələdiyi musiqi fraqmentləri əsasən orkestr üçün yazılmış epizodlar, muğamların girişi və sonluqları, III və IV pərdələrə yazılmış giriş musiqisi və s. idi. Bu hissələr o qədər xalq musiqi ruhuyla aşılanmış və onun nümunələriylə üzvü vəhdət təşkil etmişdir ki, onları klassik

[4] В.Виноградов. Узеир Гаджибеков и азербайджанская музыка. М. Музгиз 1938, с. 14.

muğam və təsniflərdən ayırmaq çətin idi. Bu da bəstəkarın artıq ilk əsərində xalq musiqisinin üslub xüsusiyyətlərinin, onun lad-intonasiya əsasına sərbəst yiyələnməsini sübut edirdi.

"Leyli və Məcnun"un premyerası 1908-ci ildə Bakıda H.Z.Tağıyevin teatrında olmuşdur.

XVI əsrin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin poemasının süjeti əsasında yaranmış bu opera, orta əsrin feodal cəmiyyətinin ehkamlarına qarşı yüksək humanist idealları, əsl insani hisslərin gözəlliyini tərənnüm edirdi.

Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasının musiqisində Füzuli poemasının lirik və romantik ruhunu, ümumi tonallığını böyük ilhamla verə bilmişdir.

"Leyli və Məcnun" operasında musiqi poeziyanı rövnəqləndirir, poeziya isə musiqini yüksəldir. Elə bil müxtəlif əsrlərdə yaşamış iki böyük sənətkar bir-birinə yaxınlaşmış, əbədi məhəbbəti tərənnüm edən bir əsərdə qovuşmuşlar.

Opera janrının xüsusiyyətilə əlaqədar Hacıbəyli əsərin librettosunu yazarkən Füzuli poemasının mətnini xeyli ixtisar etmişdi. O, başqa dövrün sənətkarı kimi XVI əsrin poemasına müraciət edərkən bu orta əsr əsərinə münasibətini bildirmişdi.

"Leyli və Məcnun"un ilk tamaşasının maraqlı tarixi vardır. Professional ifaçı qüvvələrinin yoxluğundan qəribə vəziyyət alınırdı. Dirijor pultunun arxasında məşhur dramaturq Əbdürrəhimbəy Haqverdiyev dayanmışdı. Əsərin müəllifi Üzeyir Hacıbəyli orkestrdə skripka çalırdı. Hacıbəylinin Qori seminariyasındakı yoldaşlarından bir çoxu, maarif və mədəniyyət xadimləri, müəllimlər orkestrdə çalır, xorda oxuyurdular. Bunlardan Ə.Terequlovu, A.Qasımovu, F.Ağayevi və başqalarını göstərmək olar.

İlk tamaşanın rejissoru H.Ərəblinski, Məcnun rolunun ifaçısı Hüseynqulu Sarabski idi. H.Sarabski uzun illər boyu bu rolun gözəl və əvəzsiz ifaçısı olmuşdur. Tamaşanın təşkilatçıları böyük çətinliklərlə rastlaşmışdılar. Bu çətinliklərdən biri də Leyli roluna ifaçı tapmaq məsələsi idi. Axı müsəlman qayda-qanunlarına görə qadınlar səhnəyə buraxılmırdı. Uzun axtarışlardan sonra tamaşanın təşkilatçıları Əbdürrəhim Fərəcov adlı gözəl səsə malik bir aşpaz şagirdinə rast gəldilər, o da Leyli rolunu yalnız premyerada ifa etdi. Sonrakı tamaşalarda bu rolu müvəffəqiyyətlə ifa edən Ə.Ağdamski oldu.

"Leyli və Məcnun"da muğamlar, ariyalar, ariozo, reçitativlər, ansamblları əvəz edərək, demək olar ki, bütün iştirakçıların partiyasında vardır. Ü.Hacıbəyli bu operada muğamlara və onların şöbələrinə müraciət edərkən, onlardan kor-koranə istifadə etməmiş, zəngin muğam xəzinəsindən yalnız o muğamları seçmişdir ki, onlar müəyyən səhnələrin ümumi əhvali-ruhiyyəsinə və personajların xasiyyətinə uyğun gəlsin.

Əgər əvvəllər xanəndələr tərəfindən oxunan bu muğamlar konsert ifasında mücərrəd bir halı, əhvali-ruhiyyəni, məsələn, məhəbbəti, sevinci, kədəri ifadə edirdilərsə, bu operada həmin muğamlar əsərin ümumi məzmununa tabe olaraq ilk

dəfə səhnədəki hərəkətlə, aktyor oyunu ilə birləşərək, operanın məzmununun açılmasına, onun əhvali-ruhiyyəsinin əks edilməsinə kömək edən musiqi vasitəsi olmuşdu. Bu da "Leyli və Məcnun"un əsas müvəffəqiyyətlərindən biri sayıla bilər. Üzeyir Hacıbəyli ilk dəfə operaya vacib, dramaturji əhəmiyyəti olan xorları daxil edir.

Ü.Hacıbəyli "Leyli və Məcnun"da opera janrının və musiqinin digər formalarının möhkəm təməlini qoymaqla bərabər, həm də Azərbaycan milli harmoniyasının və polifoniyasının əsasını da yaratmışdır. Ü.Hacıbəyli ilk dəfə bu operada çoxsəsliliyin sadə formalarını Azərbaycan xalq musiqisinin təksəsli quruluşu ilə uyğunlaşdırmış və bununla da bəstəkar Azərbaycan ladlarını major və minor sistemiylə birləşməsinə nail olmuşdu. Şərq və Qərb lad sistemlərinin vəhdətinin həyata keçirilməsi, sonrakı illərdə həm Ü.Hacıbəylinin özü üçün, həm də digər Azərbaycan bəstəkarlarının yaradıcılığı üçün xarakter oldu.

Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının əhəmiyyəti Azərbaycan musiqi tarixində oynadığı misilsiz rolu ilə məhdudlaşmır. Onun bir sıra Şərq xalqlarının müasir professional musiqi mədəniyyətinin yaranmasında da mühüm rolu olmuşdur. Hələ inqilabdan əvvəl Azərbaycan artistləri bu operanı Zaqafqaziyada, Orta Asiyada və İranda göstərmişlər. Hər yerdə bu opera böyük hərarətlə qarşılanmışdı.

"Özbək musiqisinin inkişaf yolları" kitabının müəllifi S.Ginzburq yazırdı ki, "Xalq ənənəsi ilə rus mədəniyyəti nailiyyətlərinin, vəhdəti nəticəsində ilk milli opera "Leyli və Məcnun"u yaratmış Azərbaycan teatrının qabaqcıl xadimlərinin təcrübəsi özbək ziyalılarına böyük təsir göstərmiş və onlarda eyni səpkili özbək əsərləri görməyə canlı həvəs oyatmışdır".[5]

Məhz bu operadan sonra Özbəkistanda da R.Qliyer və Q.Sadıxov tərəfindən həmin əfsanə əsasında "Leyli və Məcnun" operası yaranmışdı. Bu operanın musiqisini də xalq yaradıcılığının nümunələri və makomlar təşkil edirdi.

"Leyli və Məcnun" operasının müvəffəqiyyətindən ruhlanan Ü.Hacıbəyli 1909-cu ildən 1915-ci ilə qədər beş muğam operası – 1909-cu ildə "Şeyx Sənan", 1910-cu ildə "Rüstəm və Söhrab", 1912-də "Şah Abbas və Xurşudbanu" və həmin ildə "Əsli və Kərəm", 1915-də "Harun və Leyla"nı yazdı. Bu operaların librettosunu o, xalq dastanları əsasında, "Rüstəm və Söhrab" operasını isə Firdovsinin "Şahnamə"si əsasında yazmışdır.

Dünya musiqi sənətində nadir hadisə olan "Muğam operaları", yalnız Ü.Hacıbəylinin yaradıcılıq yolunda deyil, bütün Azərbaycan musiqi sənətinin inkişafında böyük rol oynamışdır.

Bu gün biz "muğam operası"nı köhnəlmiş və şifahi xalq yaradıcılığından bəstəkarlığa keçid dövrü kimi deyil, milli opera janrının müstəqil inkişaf yolu kimi qiymətləndiririk.

---

[5] С.Гинзбург. Пути развития узбекской музыки. М-Л., «Искусство», 1946, с. 22.

Azərbaycan simfonik muğamı kimi, bu janr da, müasir şəraitdə, müasir tələblərə uyğun olaraq davam etdirilə bilər.

*   *   *

Üzeyir Hacıbəylinin yaradıcılığında və Azərbaycan musiqi sənətinin inkişafında bəstəkarın inqilabdan əvvəl yazdığı “Ər və arvad” (premyerası 1910-cu il 10 may), “O olmasın, bu olsun” (premyerası 1911-ci il 25 aprel), “Arşın mal alan” (premyerası 1913-cü il 25 oktyabr) operettaları xüsusi yer tutur. Operetta janrına müraciət etmənin səbəbini Hacıbəylidən soruşduqda o, belə cavab vermişdir: “Musiqinin qüvvəsinə inam və musiqi vasitələri ilə ictimai-məişət eyblərini qamçılamaq həvəsi, musiqidə Azərbaycan ziyalılarının proqressiv qüvvələrinin ətalət və mədəniyyətsizliyə qarşı mübarizəsini əks etdirmək səyi məni komik musiqi janrı - operettanı yaratmağa sövq etdi.[6]

Ü.Hacıbəylinin operettalarını Qərbi Avropa operasının musiqili səhnə janrları, İtaliyada - opera-buff, Fransada - opera-komik, Almaniyada - zinqşpil, Rusiyada - komik opera janrları ilə müqayisə etmək olar. Lakin bu operettaların əhəmiyyətini Azərbaycan mədəniyyətinin tarixində M.F.Axundovun komediyaları ilə, “Molla Nəsrəddin” jurnalının felyetonları ilə, Ə.Əzimzadə karikaturaları ilə, M.Ə.Sabirin poeziyası ilə müqaysiə etmək daha doğru olar.

Azərbaycan artistlərinin Türkiyədə qastrolu vaxtı, “O olmasın, bu olsun” və “Arşın mal alan”ı görən məhşur türk yazıçısı Rəşad Nuri Güntəkin öz məqaləsində Hacıbəyli operettalarının yumorunu böyük fransız komediyanəvisi Molyerin əsərləri ilə müqayisə edirdi.[7]

Ü.Hacıbəyli ilk iki operettasını yazdıqdan sonra 1911-ci ildə musiqi təhsilini davam etdirmək üçün Moskvaya gedir və filarmoniya nəzdində pullu kurslarda solfeciodan N.M.Laduxinlə, harmoniyadan isə N.N.Sokolovski ilə məşğul olur. Lakin çox tez ağır maddi şərait üzündən o təhsilini dayandırıb Bakıya qayıtmağa məcbur olur. 1913-cü ildə o, yenidən oxumağa, bu dəfə Peterburq Konservatoriyasına gedir.

Hacıbəylinin konservatoriyada harmoniya üzrə müəllimi böyük rus bəstəkarı N.A.Rimski-Korsakovun tələbəsi V.P.Kalafatti idi. Fortepiano və orqan üzrə dərslərini isə Hacıbəyli konservatoriyanın görkəmli müəllimləri V.V.Şerbakov və Y.Y.Qandşindən alırdı. Hacıbəyli Peterburq konservatoriyasında təəsüf ki, çox az müddət, cəmi altı ay oxumuşdur. Lakin bu kiçik müddət də ona çox şey vermişdir. Bu vaxt Hacıbəyli üçün əldə edilən başqa biliklər ilə yanaşı, həm də “eşitmə təəssüratlarının zənginliyi” mənadan dolğun idi.

Hacıbəyli Peterburqda geniş, beynəlxaq şöhrət qazanan üçüncü operettası “Arşın mal alan”ı yazır. Hacıbəylinin yazdığı, operettaların ədəbi mətnində gənc,

---

[6] X.Ağayeva. Üzeyir Hacıbəyov. Bakı, 1955, s. 68.
[7] Rəşad Nuri Güntəkin. Azərbaycan teatrı. “Türk sənət jurnalı, Böyük məcmuə”. İstanbul, 1919, № 1.

sevgililərin surətləri məişət planında, parlaq nikbin çalarlarla verilmişdir. Əgər "Leyli və Məcnun"da, "Əsli və Kərəm"də Hacıbəyli cəmiyyəti taqsırlandıraraq öz qəhrəmanlarının faciəvi taleyini göstərirsə, operettalarda o, cəmiyyətə şən, həm də acı (xüsusilə "O olmasın, bu olsun"da) gülüşlə gülür.

Muğam operalarından fərqli olaraq Ü.Hacıbəyli operetta janrında, demək olar ki, xalq musiqisindən sitat gətirmir, lakin bu əsərlər folklor intonasiyaları, döngələri, üsulları ilə zəngindir. Bəstəkar xalq musiqisinin ruhunu, özü də peşəkar səviyyədə, xüsusilə "Arşın mal alan"da yaradır.

Ü.Hacıbəylinin "O olmasın, bu olsun" və "Arşın mal alan" operettaları dünyanın bir çox dillərinə tərcümə edilmiş və dəfələrlə ekranlaşdırılmışdır. "Arşın mal alan" 50-dən artıq ölkənin 120-dən çox səhnəsində qoyulmuşdur, 70-dən artıq dildə Ü.Hacıbəylinin təkrarsız musiqisi səslənmişdir "Arşın mal alan"ın librettosu ingilis, rus, ukrayna, belarus, gürcü, erməni, türk, fars, çin, polyak, bolqar, hətta udin və s. dillərə tərcümə edilmişdir. "Arşın mal alan" Nyu-York, Çikaqo, Boston, Filadelfiya, Paris, London, Berlin, Ankara, Tehran, Qahirə, Varşava, Sofiya, Pekin və s. şəhərlərdə tamaşaya qoyulmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 2006-cı ilin payızında Vyana şəhərinin səhnəsində "Arşın mal alan"ın yeni tamaşası göstərilmiş və həmçinin Vyananın gozəl guşələrinin birində bəstəkarın büstu qoyulmuşdur.

"Arşın mal alan"ın ekran həyatı da çox maraqlı olmuşdur. Bu operetta əsasında ilk bədii film 1916-cı ildə Q.Belyakov, 1917-ci ildə B.Svetlov tərəfindən çəkilmişdir. ABŞ-da erməni rejissoru R.Mamulyan tərəfindən ekranlaşdırıldı. 1937-ci ildə "Arşın mal alan" ABŞ-ın bir sıra şəhərlərində ermənilər S.Vartyan və S.Maqalyan "Arşın mal alan"ın erməni dilində tamaşalarını qoymuş və böyük qazanc əldə etmişlər. "Arşm mal alan" "erməni operettalarının kraliçası" adlandırılmışdır, afişalarda və titrlərdə operettanın müəllifi Ü.Hacıbəylinin adı isə göstərilməmişdir.

1945-ci ildə Bakı kinostudiyasında (indiki Azərbay-canfilm) çəkilmiş ağ-qara "Arşın mal alan" musiqili filmi dünyada geniş şöhrət qazandı. Ssenari müəllifi S.Rəhman, quruluşçu rejissorlar R.Təhmasib və N.Leşenko, operatorlar Ə.Atakişiyev və M.Dadaşov, musiqi redaktoru Niyazi idi. Baş rollarda R.Behbudov (Əsgər), L.Cavanşirova (Gülçöhrə), Ə.Hüseynzadə (Soltan bəy), M.Kələntərli (Cahan xala), L.Abdullayev (Vəli), İ.Əfəndiyev (Süleyman bəy), F.Mehrəliyeva (Telli) və b. çəkilmişlər. "Arşın mal alan" filminə görə (1945) onun yaradıcı qrupu və bəstəkarı Ü.Hacıbəyli SSRİ mükafatına layiq görülmüşlər.

Bu filmin bütün dünyada şöhrət qazanmasında şübhəsiz ki, Üzeyir bəyin gözəl musiqisi ilə bərabər uğurlu aktyor tərkibinin rolu böyükdür və ilk növbədə SSRİ-nin Xalq artisti R.Behbudov Əsgər rolunun təkrarsız ifaçısı kimi qeyd olunmalıdır.

1960-ci ildə "Arşın mal alan" operettası Bakıda yenidən ekranlaşdırılmışdır. Rejissor T.Tağızadə tərəfindən çəkilmiş bu film (ssenari müəllifləri M.Dadaşov və T.Tağızadə) rəngli idi. Filmin musiqi redaktoru F.Əmirov, baş rolları H.Məmmədov

(Əsgər), L.Şıxlinskaya (Gülçöhrə), M.Q.Yegiazarov (Süleyman), A.Qurbanov (Soltan bəy), N.Məlikova (Cahan xala), S.İbrahimova (Telli) və b. ifa etmişlər.

Ü.Hacıbəylinin "O olmasın, bu olsun" operettası isə 1919-cu ildə Yaltada, ikinci dəfə 1956-cı ildə "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırılmışdır.

Üzeyir Hacıbəylinin mütərəqqi ictimai xadim kimi, həm də bəstəkar kimi yetişməsində həyatının Moskva və Peterburq dövrünün müstəsna rolu olmuşdur. Moskvada musiqi kurslarında oxuduğu qısa müddət, Peterburqda, görkəmli rus bəstəkarı Qlazunovun rəhbərlik etdiyi konservatoriyada təhsil dövrü - Hacıbəylinin bəstəkar kimi püxtələşməsində böyük əhəmiyyətə malikdir.

Hacıbəyli klassik rus və Avropa bəstəkarlarının sənətini yüksək dəyərləndirdiyi kimi, onun öz sənəti də ən mötəbər musiqiçilər tərəfindən layiqincə qiymətləndirilmişdir. Şostakoviç, Qliyer, Şaporin, Xrennikov kimi görkəmli bəstəkarlar, Belyayev, Vinoqradov, Ginzburq, Keldış, Korev, Xubov, Rıjkin kimi ciddi musiqişünaslar, Moskvin, Kaçalov, Paşennaya, Leonidov, Reyzen kimi müqtədir aktyorlar, Vesnin kimi məşhur memar, "Lyubov Yarovaya" pyesinin müəllifi Trenyov kimi məşhur dramaturq və neçə-neçə başqa şöhrətli sənət xadimi Üzeyir Hacıbəyli yaradıcılığı haqqında səmimi sözlər söyləmiş, onun musiqisinə məhəbbət və rəğbətlərini bildirmişlər.

* * *

Ü.Hacıbəyli 1918-1920-ci illərdə Azərbaycan Demokratik hakimiyyəti dövründə "Azərbaycan" qəzetində fəal çalışır. Bu qəzetin ilk redaktoru Üzeyir bəyin kiçik qardaşı Ceyhun bəy idi. Hacıbəylinin özü isə bir ildən artıq bu qəzetin müdiri olmuşdur. Həmin qəzetdə Ü.Hacıbəylinin "İstiqlaliyyət", "Partiyalarımız", "Azərbaycan parlamanı", "Andronik məsələsi", "Vəzifəmiz nədir?", "Lənkəran faciəsi", "Qarabağ haqqında", "Naxçıvan və Qarabağ", "Milliləşmək", "Rusiya əhvalı", "İçimizdəki denikinlər" və s. mühüm məqalələr dərc edilmişdir. Ü.Hacıbəylinin l919-cu ildə Azərbaycan Cümhuriyyətinin bir ili münasibətilə "İstiqlal" məcmuəsində dərc etdiyi "Azərbaycan türklərinin musiqisi haqqında" əsəri musiqi elmi üçün də xüsusi önəm daşıyır.[8]

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra milli musiqinin inkişaf məsələləri hökumətin və cəmiyyətin bütünlüklə işi olmuş, bu inkişafın planları və etapları isə ciddi müzakirələrə səbəb olmuşdu. Yeni hökumətin mədəniyyətin inkişaf problemlərinə belə münasibətilə ruhlanan Hacıbəyli böyük həvəslə özünü sevimli işə həsr edir.

Sovet dövründə yazdığı elə birinci məqalədə Hacıbəyli milli musiqi qarşısında dayanan məsələləri dəqiq sistemləşdirir və müəyyənləşdirir.

Milli musiqinin inkişaf məsələlərini Hacıbəyli əvvəlki kimi beynəlmiləl musiqi əlaqələrindən və təsirlərindən təcrid etmir. Bu iki məsələni o, vəhdətdə həll

---

[8] Üzeyir Hacıbəyov. Azərbaycan türklərinin musiqisi haqqında. Bakı, 2005.

edir. Azərbaycan türkləri ümumi musiqinin elm və sənətimizdə öyrənilməlidirlərmi, yoxsa buna heç bir ehtiyac hiss etməyib, yalnız Şərq musiqisi ilə iştiğal etmək kifayətmiş? Digər ibarə ilə biz Azərbaycan türklərinə "Ala franğa, yaxud bizlərdə "Yevropeyski" deyilən musiqini də öyrənmək lazımdırmı?". Hacıbəyli bu suala belə cavab verir: "Bəli, lazım və vacibdir; yəni o qədər vacibdir ki, bizim öz musiqimizin tərəqqisi bundan asılıdır.

...Azərbaycanda türk əhalisi arasında musiqi təhsilini yaymaq istərkən: Bax, Motsart, Bethoven kimi musiqi dahilərinin əsərlərini ondan gizlətsək, biz məqsədə nail olmarıq".[9]

Azərbaycan musiqi tarixinə 20-ci illər "təşkilatçılıq" illəri kimi daxil olmuşdur və bu təşkilat işlərinin başında Üzeyir Hacıbəyli özü dayanmışdır.

Hacıbəyli 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyasının əvvəl prorektoru, sonra rektoru olmuş, həmin ildə konservatoriya nəzdində xor kollektivi yaratmışdı, lakin o çox tez dağılmışdı. Hacıbəyli yalnız 10 ildən sonra 1936-cı ildə respublikada filarmoniyanın nəzdində xor sənətinin möhkəm təməlini yaradır. Hacıbəyli xor mədəniyyətinin böyük əhəmiyyətini başa düşür və inkişafı üçün hər bir şərait yaratmağa çalışırdı. Hələ inqilabdan əvvəlki operalara o, təksəsli xorları daxil edirdi. O vaxt bəstəkar kollektiv oxuma üçün başqa vasitə görmürdü. O dövrdə çoxsəsli xorun təşkili işində Hacıbəylinin qarşısında bir sıra ciddi çətinliklər dayanmışdı, bu da ilk növbədə repertuar məsələsi idi. Repertuara daxil olunacaq xalq mahnıları təksəsli idilər. Onların çoxsəsli xor üçün harmonizə etmək lazım idi. Təbii ki, belə melodiyaların mexaniki harmonizəsi xalq mahnısının üslubunun təhrif olunmasına, bəzən isə melodik xəttin pozulmasına gətirib çıxara bilərdi.

Hacıbəyli belə hesab edirdi ki, "çoxsəsli xor sənətinin inkişafını milli əsas üzərində qurmaq lazımdır. Yəni Azərbaycan xalq musiqisinin əsasında çoxsəsli formanın elementlərini tapmaq lazımdır. Hər mahnının ritmik, melodik və digər xüsusiyyətlərinin öyrənilməsi və şərti harmoniyasiyanın tətbiq edilməsi xor ifasında da Azərbaycan melosunun bütün xüsusiliyini, bütün koloritini dinləyiciyə çatdırmaq imkanı verir".[10]

1927-ci ildə Ü.Hacıbəyli M.Maqomayevlə birlikdə "Azərbaycan xalq mahnıları" məcmuəsini nəşr etdirir.

1931-ci ildə o, radio komitəsinin nəzdində birinci notlu Xalq Çalğı Alətləri Orkestri yaradır. Hacıbəyli bu orkestri yaratmaqdan əvvəl milli alətlərin xüsusiyyətlərini dərindən öyrənmişdir. Bu illərdə o, tarın pərdələrinin dəyişilməsi planı üzərində işləyir, tar üçün qanon tipli texniki məşğələlər və s. yazır. Bu məşğələlər ilə o, Avropa not sisteminin milli Azərbaycan alətlərinə tətbiq etmə imkanlarını isbat edirdi. Hacıbəyli 1926-cı ildə yazdığı "Şərq musiqisi və Qərb musiqi aləti" məqaləsində Azərbaycan musiqisinin Qərb musiqi alətləri ilə qarşılıqlı

---

[9] Ü.Hacıbəyov. Vəzifeyi-musiqiyyəmizə aid məsələlər. Əsərləri. II c., Bakı, 1965, s. 200.
[10] Ü.Hacıbəyov. İlk Azərbaycan xalq xoru. Əsərləri, II c., Bakı, 1965, s. 271.

əlaqələrini geniş işıqlandırır. O, əsaslı dəlillərlə Qərb aləti ilə Azərbaycan xalq musiqisi və onun alətləri arasında olan səddi aradan götürür.

Hacıbəylinin təşkil etdiyi "not" orkestri Qlinkanın, Motsartın, Şubertin, Bizenin və digər bəstəkarların əsərlərini müvəffəqiyyətlə ifa edirdi. İlk illərdə orkestrə Ü.Hacıbəyli özü dirijorluq edirdi.

O, 1931-ci ildə bu orkestr üçün iki fantaziya yazır. Bunlarda o, milli alətlərin birgə çoxsəsli ansamblda səslənmə imkanlarını nümayiş etdirir. Hacıbəyli birinci fantaziyada "Cahargah" muğamının, ikincidə isə "Şur" muğamının lad-intonasiya əsasını işlədir. Hacıbəylinin simfonik musiqinin ilk nümunələri olan "Çahargah" və "Şur" fantaziyaları, özünün üslubu, musiqinin xarakterinə görə "Koroğlu" operasının simfonik epizodlarını hazırlamışdır.

Ü.Hacıbəylinin skripka, violonçel və fortepiano üçün 1931-ci ildə yazdığı "Aşıqsayağı" triosu Azərbaycan musiqisində ilk ansambl pyeslərindən biridir. Hacıbəyli milli musiqi üçün yeni olan bu janrda aşıq üslubunun bəstəkarlıq texnikasının müxtəlif xüsusiyyətləri ilə vəhdətini yaradır. "Aşıqsayağı"nın Motsartın musiqisi kimi işıqlı musiqisi, polifonik səslərlə zərif, incə hörülməsinə baxmayaraq, fakturanın aydınlığını, şəffaflığını saxlayır. Aşıq musiqisi üçün xarakter olan "Şur" ladının intonasiyaları gah major, gah ga minora boyanaraq, gözəl səslənmələr yaradır. Ənənəvi "Sonatın alleqro" forması burada rondo və variasialılığın xüsusiyyətləri ilə qəribə uyğunlaşır.

60-cı illərdə Ü.Hacıbəylinin tələbəsi Qara Qarayev bu əsərin kamera orkestri üçün maraqlı transkripsiyasını yaratmışdır.

Üzeyir Hacıbəyli dövrün, zamanın nəbzini həssaslıqla duya bilən, xalqın daxili tələblərini hiss edə bilən və bu tələblərə musiqidə uyğun janrlar, formalar tapa bilən böyük sənətkar olmuşdur.

Ü.Hacıbəyli sovet dövründə özünün bəstəkarlıq fəaliyyətinə mahnı janrı ilə başlamışdır. Bu illərdə o, "Komsomolçu qız", "Süvari", "Pilotlar" və s. mahnılar yazır. Bu mahnılar intonasiya xüsusiyyətlərinə görə sovet kütləvi mahnılarına yaxın idi.

İnstrumental müşayiəti ilə xor üçün yazılmış əsərlər arasında xüsusi yeri onun kantataları tutur. Bu janra o, dəfələrlə müraciət edir. 1934-cü ildə o, Firdovsinin 1000 illiyinə həsr edilmiş kantatanı, 1938-ci ildə M.F.Axundovun anadan olmasının 125 illiyi ilə əlaqədar "Ölməz sənətkar" kantatasını, 1942-ci ildə isə "Vətən və cəbhə" və s. kantatalarını yazır.

Böyük Vətən müharibəsi illərində Ü.Hacıbəyli yenidən mahnı janrına müraciət edir və vətənpərvərlik mahnıları – "Çağırış", "Yaxşı yol", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Döyüşçülər marşı"nı və simfonik orkestr üçün "Cəngi" qəhrəmanlıq pyesini yazır.

Ü.Hacıbəyli Moskvada Azərbaycan incəsənəti dekadası ərəfəsində "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" məqaləsində yazırdı: "Bu il Azərbaycan operasının otuz illiyi tamam olmuşdur. Həm ilk, həm də hələlik axırıncı Azərbaycan operasının

müəllifi olmaq şərəfi mənə nəsib olmuşdur. Beləliklə, “Leyli və Məcnun”dan “Koroğlu”ya qədər” keçən yol təkcə Azərbaycan operasının otuz illik tarixi deyil, həm də mənim şəxsi yaradıcılıq yolumdur”.[11]

Azərbaycan epik qəhrəmanlıq operasının şah əsəri olan “Koroğlu” Bakıda M.F.Axundov adına Opera və Balet Teatrında 30 aprel 1937-ci ildə göstərilmişdir. Operanın librettosunu xalq qəhrəmanlıq dastanı əsasında M.S.Ordubadi yazmışdır. Operanın quruluşunu İ.Hidayətzadə vermiş, bədii tərtibat R.Mustafayevindir. Koroğlunun obrazını bu rolun klassik ifaçısı Bülbül yaratmışdır. Nigar G.İsgəndərova, primabalerina Q.Almaszadə idi. Tamaşanın dirijorluğunu Hacıbəyli özü edirdi. Gələcəkdə operanın gözəl təfsirçisi dirijor Niyazi olmuşdu.

Əgər “Leyli və Məcnun” operasının qəhrəmanları tək-tənha və faciəvi qiyamçılar idilərsə, “Koroğlu” operasının, Hacıbəylinin özünün dediyi kimi, “əsas iştirakçıları xalq və onun nümayəndələridir”. Bu cəhətdən o, böyük rus bəstəkarları Qlinkanm, Borodinin, Musorqskinin operalarına yaxındır. Xalqın obrazının təcəssümünü biz operanın birinci pərdəsindəki xorlarda, III pərdədən Koroğlunun ariozosunda və final apofeozunda görürük. Xalqın parlaq obrazını Hacıbəyli məşhur “Çənlibel” xorunda yaratmışdır. Bu xor həm də polifonik üslubun yüksək nümunəsidir. Bu xor üçün bəstəkar elə mövzu seçmişdir ki, artıq öz-özlüyündə milli səslənmə ilə polifonik inkişaf üçün böyük imkanlar yaradır. Mövzunun əsas dayaq səslərini aşıq musiqisinə xas olan kvarta-kvinta səslənmələri təşkil edir.

Koroğlunun özünün obrazı xalq həyatının geniş fonunda verilmiş, barelyefə bənzər ön planda, qabarıq şəkildə irəli çəkilmişdir. Koroğlu xalq qəhrəmanı və aşıqdır, ona görə onun surəti aşıq musiqisinin üslub xüsusiyyətləri və formaları ilə səciyyələnir, məsələn, Qırata həsr edilmiş mahnı aşıq janrı “Gözəlləmə”də yazılmışdır.

Operanm lirik səhifələri Koroğlunun sevgilisi, mərd, xalqın içərisindən çıxmış Nigarın obrazı ilə bağlıdır. Hacıbəyli onun partiyasında geniş leytmotiv sistemindən istifadə etmişdir ki, o da qəhrəman qızın gözəl, bütöv surətini qavramağa kömək edir.

“Koroğlu”da Hacıbəyli klassik opera formasına riayət edərək bitmiş ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər yaradır.

“Koroğlu” operasının simfonik dili də çox maraqlıdır. Hacıbəyli simfonik orkestrin tərkibinə xalq alətləri - tarı, balabanı, zurnanı daxil edərək bütün partituranın səslənməsini zənginləşdirir. Hacıbəylinin bu əlverişli yeniliyi çox səmərəli və perspektivli olmuşdur. “Koroğlu”da Hacıbəyli milli və Qərb alətlərinin səslənmələrinin dərin vəhdətinə nail olur. Məsələn, uvertürada skripkalar və qaboyla birlikdə milli nəfəs aləti balaban, qaboy və klarnetlə bərabər tar səslənir, III pərdədə rəqsdə fleyta pikkolayla, nəfəsli alət zurna, “Xanəndə qız”ın partiyasında kamançaların solosu və s. çalınır.

---

[11] Ü.Hacibəyov. “Leyli Məcnun” dan “Koroğlu”ya qədər. Əsərləri, II s., Bakı, 1965, s. 274

Gələcəkdə belə səslənmələrə Azərbaycanın digər bəstəkarları da müraciət etmişlər, sonralar isə tar və simfonik orkestr üçün hətta konsertlər də yaranmışdı.

Azərbaycan musqisinin inkişafında "Koroğlu" operasının əhəmiyyəti çox böyükdür. Bu, yalnız opera janrı ilə məhdudlaşmır, həm də simfonik və balet janrlarını da əhatə edir. "Koroğlu" keçmiş SSRİ-nin bir çox şəhərlərinin səhnəsində tamaşaya qoyulmuşdur. 1941-ci ildə "Koroğlu" operasına görə Hacıbəyli ikinci dəfə SSRİ Dövlət mükafatına layiq görülmüşdü.

Böyük şair Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar Hacıbəyli onun şeirlərinə iki romans-qəzəl- "Sənsiz"i (1941) və "Sevgili canan"ı (1943) yazır. Bu zərif lirik romans-qəzəllər qüvvətli təsir bağışlayırlar. Hacıbəyli orta əsr ədəbi formasına müraciət edərək bu qəzəllərdə melodik xəttin hərəkətini muğamın inkişafı ilə uyğunlaşdırır. Hər iki musiqi qəzəlində ümumi cəhətlər çoxdur, görünür, Hacıbəyli bu ədəbi janrı musiqidə məhz bu cür təsəvvür edirmiş.

1944-cü ildə Tbilisidə Zaqafqaziya respublikalarının musiqi ongünlüyü keçirildi. Ü.Hacıbəyli bu ongünlüyün ən fəal təşkilatçılarından biri idi. O, bütün respublikalarda musiqinin inikşafını diqqətlə və maraqla izləyərək, öz əqidəsini "Bir-birimizdən öyrənək" qanadlı ifadə ilə formalaşdırmışdır.

Əgər inqilabdan əvvəl Hacıbəyli öz istedadlı qələmini əsasən publisist-satiraçı kimi işlədirdisə, sovet dövründə o, musiqi haqda məqalələr yazır, böyük tədqiqat işi aparır. Bu işlərin nəticəsi 1945-ci ildə bitirdiyi "Azərbaycan xalq musiqisinin əsasları" fundamental tədqiqatı oldu.

Hacıbəyli bu haqda belə yazırdı: "Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmək sahəsindəki işimin, bir bəstəkar olaraq, mənim üçün əməli əhəmiyyəti o oldu ki, mən "Koroğlu" operasını yazdım".[12]

Hacıbəyli üçün doğma xalqının musiqisi ölü kapital deyil, canlı bütöv sistemdir ki, xalq öz "musiqi barigahını" onun əsasında qurur.

Hacıbəylinin tədqiqatı iki hissədən ibarətdir. Onun birinci hissəsi milli musiqinin səs sistemi, tetraxordların birləşmə üsulları, Azərbaycan ladları səsqatarlarının qurulma qaydaları, Azərbaycan ladlarının əmələ gəlmə qaydaları kimi əsas müddəaları irəli sürür. İkinci hissə xalq üslubunda Azərbaycan ladlarında musiqi bəstələmək qaydalarından ibarətdir.

Məşhur rus bəstəkarı R.M.Qliyer Hacıbəylinin tədqiqatını yüksək qiymətləndirərək yazırdı: "Mən əminəm ki, Sizin tədqiqat ("Azərbaycan xalq musiqisinin əsasları" - Z.S.) Azərbaycan musiqi sənətinin, həm də bütün Sovet və dünya musiqi sənətinin, inkişafında xüsusi əhəmiyyətə malik olacaq".[13]

Üzeyir Hacıbəylinin son əsəri Firuzənin (eyni adlı bitməmiş operasından) ariyası oldu.

23 noyabr 1948-ci ildə böyük sənətkarın qəlbi dayandı.

---

[12] Ü.Hacıbəyov. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 1950, s. 10.
[13] К.Касимов. «Узеир Гаджибеков» Баку, 1945, с. 70

Məşhur əfsanədə Anteyin qeyri-adi qüdrətini onun torpaqla bağlılığında görürlər. Üzeyir Hacıbəyli özü də bu müqayisəni sevirdi və bəstəkarın gücünü-qüvvəsini onun xalq həyatına, xalq sənətinə bağlılığında görürdü. Ü.Hacıbəylinin tələbəsi Fikrət Əmirov özünün "Üzeyir məktəbi" məqaləsində bu müqayisəni gətirərək, Azərbaycan bəstəkarlarını "Üzeyir yaradıcılığının bu Antey qüdrətinin sirrlərini öyrənməyə çağırırdı".[14]

"Sənətkar üçün ümumxalq rəğbəti və məhəbbəti qazanmaq çətindir Xalq öz qəlbini ancaq əsl böyük insanlara, böyük qəlbli sənətkarlara, tamamilə özünü xalqa bəxş edənlərə açır və əgər o, xalq məhəbbətini qazanırsa, bu məhəbbət insanların ürəklərində əsrlərlə yaşayır və heç vaxt sönmür".[15] Bu da bəstəkarın digər tələbəsi Qara Qaryevin sözləridir.

Xalq sənətkarı Üzeyir Hacıbəyli məhz belə məhəbbət qazanmışdır. Bu məhəbbət onun ölməz musiqisi kimi yaşayacaq və nəsildən nəslə keçəcək.

"Mən Azərbaycan bəstəkarlarına Üzeyir Hacıbəylinin böyük ənənələrini müqəddəscəsinə qorumağı və inkişaf etdirməyi arzu etmək istərdim". Bu sözlər zəmanəmizin böyük bəstəkarı Dmitri Şostakoviçindir. Bu gün Azərbaycanda bu ənənələr müqəddəscəsinə qorunur və inkişaf etdirilir, bəstəkarın xatirəsi əziz tutulur.

Bəstəkarın ölümündən sonra Bakı Dövlət Konservatoriyası, Azərbaycan Dövlət Simfonik Orkestri, Bakıda küçə dahi bəstəkarın adını daşıdı. Bakıda onun abidəsi ucaldıldı. Şuşa və Bakıda bəstəkarın ev-muzeyləri açıldı, iki seriyalı bədii televiziya filmi çəkildi. "Uzun ömrün akkordları" (ssenari müəllifi və rejissoru – Anar), Azərbaycan MEA onun musiqi əsərlərinin akademik nəşrinin beş kitabdan ibarət üç cildini çapdan buraxdı (redaktorlar - N.Əliverdibəyov və R.Abdullayev, ön söz və şərhlərin müəllifi - Z.Səfərova).

Beləliklə, Üzeyir Hacıbəylinin həyatına və ümumən yaradıcılığına nəzər salanda görürük ki, onun yaradıcılıq yolu Azərbaycan musiqi mədəniyyətinin yaranma və inkişaf tarixinin mühüm dövrünü əks etdirir.Təsadüfi deyil ki, dahi bəstəkarın anadan olduğu gün - 18 sentyabr hər il ulu öndər Heydər Əliyevin sərəncamı ilə Musiqi günü kimi, Azərbaycan Musiqisinin bayramı kimi qeyd edilir.

Builki bayrama xüsusi rövnəq verən, musiqiçiləri və Üzeyirsevənləri çox razı salan və sevindirən Prezident İlham Əliyevin Bakı Musiqi Akademiyasına Üzeyir Hacıbəylinin adının qaytarılması, bərpası haqqında sərəncam oldu.

Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən "Üzeyir dünyası" layihəsinin həyata keçirilməsinin, nəşrinin musiqi mədəniyyətimizin həyatında böyük əhəmiyyətini və rolunu xüsusi qeyd etmək istərdik.

---

[14] F.Əmirov. Üzeyir məktəbi. Musiqi səhifələri. Bakı, 1978, s. 79

[15] Q.Qarayev. Ü.Hacıbəyovun ölümü münasibətilə çıxışı «Ученые записик» АГК им. У.Гаджибекова, 1965, № 1.

Gün o gün olsun ki, Üzeyir Hacıbəylinin doğum günü-18 sentyabr bəstəkarın Vətənində Qarabağda, musiqimizin beşiyi Şuşada bayram edilsin!

***Zemfira Səfərova,***
*sənətşünaslıq doktoru, professor, Azərbaycanın Əməkdar incəsənət xadimi, Əməkdar elm xadimi, AMEA-ın müxbir üzvü*

## ÜZEYİR HACIBƏYLİNİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| **1885** | -Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 1885-ci il sentyabrın 18-də Şuşanın yaxınlığındakı Ağcabədi kəndində anadan olmuşdur.<br>-İlk təhsilini Şuşa şəhərindəki rus-Azərbaycan məktəbində almışdır. |
| **1892-1896** | -Şuşada mədrəsədə təhsil almış, ərəb və fars dillərini mükəmməl yiyələnmişdir. |
| **1897 (18 avqust)** | -Bəylik şəhadətnaməsi verilmişdir. |
| **1897-1898** | -Füzulinin “Leyli və Məcnun” poemasından “Məcnun Leylinin məzarı üstündə” adlı səhnələşdirilmiş parçada xorun iştirakçısı (Şuşa). |
| **1898** | -“Kitabi-məshəkə” əsərini yazmışdır. |
| **1897-1899** | -Şuşa məktəbində oxumuşdur. |
| **1899avqust – 1904 iyun** | -Qori Müəllimlər seminariyasına daxil olmuş, oranı bitirərək kənd müəllimi adını almışdır. |
| **1903** | -“Dəllək” felyetonu (“Şərqi-rus” qəzeti) dərc edilmişdir. |
| **1904** | -Ədəbi-publisist yaradıcılığına başlamışdır. |
| **1904 sentyabr** | -Hadrut kəndində müəllim işləmişdir. |
| **1905 mart** | -Şuşada “Cavanlar ittifaqı” təşkilatının üzvü olmuşdur.<br>-Bakı şəhərinə köçmüşdür. “Həyat” qəzeti redaksiyasında mütərcim işləmişdir. |
| **1905-1907** | -Bakı şəhərinin Bibiheybət ibtidai məktəbində müəllim işləmişdir. |

| | |
|---|---|
| **1905 dekabr – 1908 iyun (fasilə ilə)** | -"İrşad" qəzetində mütərcim və felyetonçu işləmişdir. |
| **1907-** | "Leyli və Məcnun" operası üzərində işləyərək bəstəkarlıq fəaliyyətinə başlamışdır.<br>-"Siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin turk-rus və rus-turk luğəti" çapdan çıxmışdır. Bu luğət maarifçilik sahəsində böyük rol oynamışdır. |
| **1908** | -"Hesab məsələləri" kitabını yazmışdır. |
| **1908, 12(25) yanvar** | -Azərbaycanda muasir professional musiqi sənətinin əsasını qoyan "Leyli və Məcnun" operasının ilk tamaşası olmuşdur. |
| **1908-1909** | -"Tərəqqi" qəzetinin felyetonçusu və müvəqqəti redaktoru olmuşdur. |
| **1908-1911** | -"Səadət" xeyriyyə cəmiyyəti məktəbində müəllim i şləmişdir. |
| **1909, 30 noyabr** | -"Şeyx Sənan" operasının ilk tamaşası olmuşdur. |
| **1909,20 dekabr** | -Məleykə Telequlova ilə ailə həyatı qurmuşdur. |
| **1909** | -N.V.Qoqolun "Şinel" əsərini Azərbaycan dilinə tərcümə etmişdir. |
| **1909-1910** | -"Həqiqət" qəzetinin redaktoru olmuşdur. |
| **1910, 24 may** | -"Ər və arvad" operettasının ilk tamaşası olmuşdur. |
| **1910, 12 noyabr** | -"Rüstəm və Söhrab" operasının ilk tamaşası olmuşdur. |
| **1911, 25 aprel** | -"O olmasın, bu olsun" operettasının ilk tamaşası olmuşdur. |

| | |
|---|---|
| **1912, 10 mart** | -“Şah Abbas və Xurşudbanu” operasının ilk tamaşası olmuşdur. |
| **1912, 18 may** | -“Əsli və Kərəm” operasının ilk tamaşası olmuşdur. |
| **1912-1913** | -Moskvada Filarmoniya Cəmiyyəti nəzdində İlyinskinin xüsusi musiqi kurslarında təhsil almışdır (N.M.Laduxinin və N.N.Sokolovskinin rəhbərliyi altında). |
| **1913 avqust** | -Peterburqa köçmüşdür.<br>-“Arşın mal alan” operettası üzərində işi tamamlayır. |
| **1913, 25 oktyabr** | -“Arşın mal alan” operettasının ilk tamaşası (Bakı) olmuşdur. |
| **1914 yanvar-iyun** | -Peterburq Konservatoriyada təhsil almışdır. “Harun və Leyla” operası üzərində işləmişdir. |
| **1915** | -“Harun və Leyla” operasının librettosu nəşr edilmişdir. |
